YENİ DƏRS İLİNİZ MÜBARƏK!

# Təbib

Təsisçi: Azərbaycan Tibb Universiteti

Qəzet 1933 -cü ildən çıxır. http://www.amu.edu.az № 15 (1655) 16 sentyabr 2017 - ci il Qiyməti 50 qəpik

## Bakıda “Azəri”, “Çıraq” və “Günəşli” yataqları üzrə yeni Sazişin imzalanması mərasimi keçirilib

**Sentyabrın 14-də Bakıda, Heydər Əliyev Mərkəzində Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Sazişin imzalanması mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Dövlətimizin başçısı mərasimdə nitq söylədi.

***

Sonra Azərbaycanın neft-qaz strategiyasına həsr olunan videoçarx nümayiş etdirildi. Videoçarxda ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması istiqamətində həyata keçirilən layihələrdən bəhs olunur.

Daha sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və nümayəndə heyətləri başçılarının iştirakı ilə Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının və “Günəşli” yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş Saziş imzalandı.

Sazişi Azərbaycan Hökumətinin, SOCAR-ın, BP, “Chevron”, IMPEX, “Statoil”, “ExxonMobil”, “TP”, ITOCHU və “ONGC Videsh” şirkətlərinin rəsmiləri imzaladılar.

Hasilatın Pay Bölgüsü haqqında düzəliş edilmiş və yenidən işlənmiş sazişə əsasən BP layihənin operatoru olaraq qalacaq. Növbəti 32 il müddətində



“Azəri-Çıraq-Günəşli” yataqlarına 40 milyard dollardan artıq sərmayə qoyulması potensialı var. Bu Sazişin ardınca SOCAR və tərəfdaşları arasında “Azəri-Çıraq-Günəşli” müqavilə ərazisi üçün əlavə bir hasilat platformasının qiymətləndirilməsi məqsədilə mühəndis-layihə işlərinin aparılması haqqında razılaşma əldə olunub.

Sonda xatirə şəkli çəkdirildi.

## BU SAYIMIZDA

ATU-da “BİLİK GÜNÜ”NƏ HƏSR EDİLMİŞ TOPLANTI KEÇİRİLDİ 2



Ben-Qurion Universitetinin professorları ATU-da 3



Heriatriya üzrə başladılan iki günlük seminar başa çatdı 3



ATU-da I kursa qəbul olmuş tələbələrlə silsilə görüşlər keçirilib 4-5



Yanğından mühafizə qaydalarına həsr olunmuş tədbir keçirilib 6

KURSANTLARIMIZ TƏNTƏNƏLİ ŞƏKİLDƏ HƏRBİ AND İÇDİLƏR 6



ATU-nun 26 tələbəsi Prezident təqaüdünə layiq görüldü 3



# ATU- da “BİLİK GÜNÜ”NƏ HƏSR EDİLMİŞ TOPLANTI KEÇİRİLDİ

**◆ 15 sentyabr Azərbaycanın çoxmilyonlu təhsil ictimaiyyətinin bayramı - “Bilik Günü”dür. Təhsilin, elmin, biliyin tərəqqi üçün açar, inkişafın hərəkətverici qüvvəsi hesab olunduğu ölkəmizdə yeni dərs ilinin ilk günü - “Bilik günü” həmişə ümumxalq bayramı kimi qeyd olunur.**

Ölkə başçısı İlham Əliyev cənablarının “Azərbaycan Respublikasında “Bilik Günü” nün təsis edilməsi və ümumtəhsil müəssisələrində iş rejiminin tənzimlənməsi haqqında” 2004-cü il tarixli Fərmanına əsasən, hər il sentyabrın 15-i “Bilik Günü” elan edilmişdir





Son illər Azərbaycan təhsil sisteminin normativ-hüquqi bazasının yaradılması, təhsilin məzmununun yeniləşdirilməsi və təkmilləşdirilməsi, idarə olunmasının demokratikləşdirilməsində uğurlu nəticələr əldə edilib.

Respublikamızın bütün ümumtəhsil, orta ixtisas və ali məktəblərində yüksək səviyyədə qeyd edildiyi kimi, ölkəmizdə ən nüfuzlu ali təhsil müəssisələrindən biri sayılan Azərbaycan Tibb Universitetində də “Bilik günü”nə xüsusi önəm verilir.

Elə bu münasibətlə universitetimizdə geniş toplantı keçirildi.

Dövlət himnimizin səslənməsi ilə başlanan toplantını giriş sözü ilə açan Azərbaycan Tibb Universitetin rektoru, professor Gəray Gəraybəyli doğma kollektivi və bu il tələbə adını qazananları, həmçinin onların valideynlərini yeni tədris ilinin başlanması münasibətilə təbrik edərək bu əlamətdar günün yaranma tarixindən söhbət açdı: “Tibb Universiteti böyük tarixə və dərin ənənələrə malik olan tədris ocağıdır. Bu ali məktəbin məzunları arasında məşhur alimlər, professorlar, tanınmış müəllimlərimiz var. Və mən inanıram ki, indi burda əyləşən gənclərimiz də gələcəkdə o seçilən mütəxəssislər sırasında olacaqlar”.

Universitet rəhbəri çıxışında Azərbaycanın dövlət müstəqilliyini qazanmasından keçən illər ərzində respublikamızın həyatının bütün sahələrində, xüsusən də təhsil sahəsində böyük uğurların əldə edildiyini önə çəkdi.

Sözünə davam edən rektor elmə və təhsilə göstərilən dövlət qayğısından bəhs etdi, universitetin keçdiyi şərəfli inkişaf yoluna da nəzər saldı. Bildirdi ki, bu elm müəssisəsinin maddi-texniki bazasının möhkəmləndirilməsi, yüksək ixtisaslı tibb kadrlarının hazırlanması ümummilli lider, müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin adı ilə bağlıdır. O, ümummilli lider Heydər Əliyevin təhsilə daim böyük önəm verdiyini, ulu öndərin ideyalarının Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini vurğuladı.

Müstəqil Azərbaycan Respublikasının memarı olan ümummilli lider Heydər Əliyevin eyni zamanda Azərbaycan Tibb Universitetinin də əsil qurucusu, yaradıcısı olduğunu qeyd edən G.Gəraybəyli, bu xeyirxah missiyanın ölkə Prezidenti cənab İlham Əliyevin böyük uğurla davam etdirdiyini söylədi. O, iki dəfə ulu öndər Heydər Əliyevin, üç dəfə isə cənab Prezident İlham Əliyevin və ölkəmizin Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın universitetimizə gəlişini xatırlatdı. Onların Tədris Terapevtik və Tədris Cərrahiyyə Klinikalarının tikilib istifadəyə verilməsində şəxsən iştirak etmələrini, o cümlədən bu klinikaların, eləcə də Tədris Stomatoloji və Onkoloji Klinikaların müasir tipli avadanlıqlarla təchiz olunmasını dövlətin universitetimizə göstərdiyi qayğı və diqqətin bariz nümunəsi kimi dəyərləndirdi.

2017/2018-ci tədris ilində ATU-ya 956 nəfərin qəbul olunduğunu deyən G.Gəraybəyli qeyd etdi ki, 395 abituriyent qəbul imtahanlarında 600-dən yuxarı bal toplayıb. Bundan başqa 700 bal toplayan 3 nəfər tələbə bizim universitetdə təhsil alacaqdır. Prezident təqaüdçülərinin sayı isə 26 nəfərdir. O cümlədən, bu tədris ilində 573 nəfər xarici ölkə vətəndaşı hazırlıq şöbəsini bitirdikdən sonra universitetimizin birinci kursuna qəbul olnmuşdur. Rektor tələbələrə bu uğurların davamlı olmasını dilədi.

Tədbirdə çıxış edən Nəsimi rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov dövlətimizin iqtisadi inkişafından, tibb sahəsində kadr potensialının hazırlanması istiqamətində qazanılan nailiyyətlərdən söhbət açdı. Tibb sahəsinin, təhsil sahəsinin ölkəmizdə irəlidə gedən bir sahəyə çevrildiyini vurğuladı.

O, diqqətə çatdırdı ki, ölkəmizdə ildən-ilə müəllimlərin və həkimlərin maddi rifah halının yaxşılaşdırılması istiqamətində böyük işlər görülür, Azərbaycan hökumətinin qarşısında duran başlıca məqsəd təhsil və səhiyyə sahələrində yüksək keyfiyyətə nail olmaqdır. Ölkənin müxtəlif bölgələrində müasir tipli tibb müəssisələrinin inşa edilərək xalqın istifadəsinə verildiyini və həmin müəssisələrin müasir avadanlıqlarla təchiz olunduğunu qeyd etdi. O, Azərbaycan təhsilinin və səhiyyəsinin infrastrukturunda əsaslı islahatlar aparıldığını önə çəkərək bildirdi ki, bütün bu irəliləyişlərin kökündə Azərbaycanın daim artan iqtisadi gücü dayanır. Bütün sahələrdə gedən dinamik inkişaf isə ulu öndər Heydər Əliyev tərəfindən bünövrəsi qoyulan və cənab Prezidentimiz İlham Əliyevin uğurla davam etdirdiyi iqtisadi siyasətin təntənəsinin göstəricisidir.

YAP-ın Nəsimi rayon təşkilatının sədri, millət vəkili Məlahət İbrahimqızı Azərbaycan Tibb Universitetinin ölkəmizdə və xaricdə böyük nüfuza malik olduğunu, bu təhsil müəssisəsinin xalqımıza yalnız bacarıqlı tibbi kadrlar deyil, həm də görkəmli şəxsiyyətlər bəxş etdiyini dilə gətirdi. O, qeyd etdi ki, indi Tibb Universitetinin məzunlarının sorağı dünyanın inkişaf etmiş bir çox ölkələrindən gəlir. Və bu da şübhəsiz ki, bizim hamımızın məzunu olduğumuz doğma universitetimizə həmişə daim baş ucalığı gətirib.

Histologiya, sitologiya və embriologiya kafedrasının müdiri, professor Eldar Qasımov “Bilik günü” münasibəti ilə müəllim və tələbələri təbrik etdi. Azərbaycan səhiyyəsinin ölkənin inkişaf tempinə uyğun olaraq inkişaf etdiyini bildirdi. Eyni zamanda tələbələrə ötövsiyələrini verdi: “Orta statistik nəticələr göstərir ki, məktəblilərin çoxu gələcəkdə həkim olmaq istəyirlər. Amma onların 9-10 faizi buna nail olur. Siz artıq ATU tələbəsi olduğunuz üçün seçilmişlərdənsiniz, daim öyrənməyə həvəsli olmalısız. Pedaqoqla yanaşı, siz özünüz də oxumağı həqiqətən istəməlisiniz. Çünki sizlər həkim olub, kimlərinsə həyatını xilas edəcəksiniz”.

II uşaq xəstəlikləri kafedrasının müdiri, ə.e.x., professor Amaliya Əyyubova isə çıxışında dövlətimizin iqtisadi inkişafından, tibb sahəsində kadr potensialının hazırlanması istiqamətində qazanılan nailiyyətlərdən söhbət açdı. Tibb sahəsinin, səhiyyə sisteminin ölkədə irəlidə gedən bir sahəyə çevrildiyini vurğuladı.

Çıxışlarında tələbələrin yüksək təhsil almaları üçün Azəbaycan Tibb Universitetində hər cür şəraitin yaradıldığını bildirən natiqlər tələbə sıralarına yenicə qəbul olunanlara bu peşənin məsuliyyətini dərk edərək əzmlə çalışmağı tövsiyə etdilər. Bu gün ATU-nun böyük maddi-texniki bazaya malik olduğunu vurğulayan natiqlər gənclərə tövsiyə etdilər ki, əsil vətəndaş olmaq üçün təkcə savad azdır, həm də milli-mədəni sərvətlərimizi qoruyub saxlamalı və gələcək nəsillərə ötürməliyik.

700 balla ATU-nun tələbəsi adını qazanan Prezident təqaüdçüsü Ziya Müslümov I kurs tələbələri adından gələcək müəllimlərinə təşəkkürünü çatdırdı, daim bu ali təhsil ocağının adını ucaldacaqlarına və müəllimlərinin etimadını doğruldacalarına söz verdi.

Tədbiri yekunlaşdıran professor Gəray Gəraybəyli yeni dərs ilinin başlaması münasibətilə universitet əməkdaşlarını və tələbləri bir daha təbrik edərək söylədi ki, bu il həm də bizim üçün ona görə əlamətdardır ki, Prezident təqaüdçüləri arasında reytinq cədvəli üzrə həmişə olduğu kimi yenə də birinciyik. Bununla da Prezident təqaüdçülərinin 1/4-nin bizim universitetin payına düşdüyünü vurğulayan rektor kollektivin bundan sonra da yeni uğurlara imza atacağını və yüksək ixtisaslı peşəkar mütəxəssislər hazırlığına diqqəti artıracağını bir daha ifadə etdi.

Tədbirdə ATU-nun İctimai-Nəzarət Şurasının üzvü, millət vəkili İlham Məmmədov, Nəsimi rayon İcra Hakimiyyətinin məsul şəxsləri, Tibb Universitetinin professor-müəllim heyəti və tələbələri iştirak edirdilər.

Mənsur ƏLƏKBƏRLİ
Fotolar Cənnətalı Çingizindir

# Ben-Qurion Universitetinin professorları ATU-da

Sentyabrın 13-də İsrailin Ben-Qurion Universitetinin nümayəndə heyəti Azərbaycan Tibb Universitetində qonaq olub, ATU-nun rektoru, professor Gəray Gəraybəyli ilə görüşüblər.



Görüş zamanı professor Gəray Gəraybəyli qonaqlara ATU-da tədris prosesi ilə yanaşı, müəssisənin beynəlxalq əlaqələri haqqında da söz açdı: “Tibb Universiteti ilə bir sıra ölkələrin universitetləri arasında əməkdaşlıq memorandumları im-





zalanıb. Son illər ərzində daha çox xarici ölkələrin təhsil müəssisələri ilə əlaqələr qurulub. Bu ölkələr arasında İsrail ən sıx münasibət qurduğumuz ölkələrdən biridir. Bu dostluq və əməkdaşlıq əlaqələri çərçivəsində xarici ölkələrdən gələn mütəxəssislər bizim tələbələr qarşısında məruzə ilə çıxış edir, tələbələrimiz mübadilə proqramlarında iştirak edirlər”.

Görüş zamanı rektor G.Gəraybəyli qeyd edib ki, indiyədək Azərbaycanda heriatriya şöbəsi olan bir klinika, hansısa tibb müəssisəsi olmayıb. İlk dəfə olaraq məhz ATU-nun Tədris Terapevtik Klinikasında heriatriya şöbəsi yaradılıb. Rektor bu şöbənin uğurlu fəaliyyətinə israilli mütəxəssislərin də yardım edə biləcəyini qeyd edib.

Daha sonra ATU-nun beynəlxalq işlər üzrə prorektoru, dosent Nadir Zeynalov universitetidə təhsil alan xarici tələbələr, onları üçün yaradılan şərait, ATU-nun qoşulduğu beynəlxalq proqramlar və s barəsində ətraflı məlumatı qonaqların diqqətinə çatdırıb.

Ben-Qurion Universitetinin Tibb fakültəsinin baş mühazirəçisi, professor Yan Press ATU-nun klinikasında yaradılan heriatriya şöbəsi haqqında təəssüratlarını açıqladı və görülən işləri təqdirəlayiq ad-

landırdı: “Heriatriya önəmsənməli bir sahədir. Klinikanızda yaradılan şəraitlə, bu sahəyə cavabdeh şəxslərlə tanış oldum. Hamı işində olduqca dəqiq insanlardır. Biz də bu şöbənini işinin yüksək səviyyədə qurulması üçün əlimdən gələn köməyi etməyə hazırıq”.

Qeyd edək ki, İsrailin Ben-Qurion Universitetinin Tibb fakültəsinin baş mühazirəçisi, ATU-nun məzunu, professor Yan Press ATU-da təşkil edilən iki günlük seminarda çıxış edəcək. “DELİRİY” mövzusunda məruzə ilə çıxış edən professor Y.Press 65 yaşdan yuxarı insanlarda xəstəliklərin müayinə və müalicəsi ilə bağlı məsələlərdən danışacaq. Mühazirə İsrail Klalit Tibb Şəbəkəsinin Cənub bölgəsi üzrə ambulator heriatriya xidmətinin rəhbərinin iştirakilə baş tutacaq.

Qeyd olundu ki, xarici professorlar səfər zamanı ATU-nun Tədris Cərrahiyyə Klinikasını, Tədris Terapevtik Klinikasını gəziblər, burada tələbələr və xəstələr üçün yaradılan şəraitlə yaxından tanış olublar. Azərbaycanda səfərdə olan nümayəndə heyətinin tərkibinə dr. Alek Geftler də daxildir.

1969-cu ildə yaradılan Ben Gurion universiteti hazırda İsrailin ən böyük təhsil və tədqiqat mərkəzlərindən biri sayılır. Universitetin nəzdində bütün dünya üzrə məşhur olan İrvinq Qoldman adına tibbi məktəb fəaliyyət göstərir. Burada dünyanın hər yerindən tələbələr təhsil alır.

**ATU-nun mətbuat xidməti**

# ATU-nun 26 tələbəsi Prezident təqaüdünə layiq görüldü

**Prezident İlham Əliyev 2017/2018-ci tədris ilində Azərbaycan Respublikasının ali məktəblərinə daxil olmuş tələbələrə Prezident təqaüdünün verilməsi haqqında sərəncam imzalayıb.**

Sevindirici haldır ki, bu yüksək təqaüdə layiq görülənlər arasında 26 nəfər Azərbaycan Tibb Universitetinin tələbəsi adını daşıyır.

Prezident təqaüdünə layiq görülmüş tələbələrimizi təbrik edir, onlara daha yeni uğurlar, təhsillərində davamlı nailiyyətlər arzulayırıq.

Prezident təqaüdü alacaq ATU tələbələrinin siyahısını təqdim edirik:



1.Abdullayev Toğrul Pərviz oğlu
2.Ağazadə Zəhra Tahir qızı
3.Bağırzadə Nazlı Teymur qızı
4.Baxşıyeva Nərgiz Tofiq qızı
5.Cavadzadə Fəhmin Hidayət oğlu
6.Əfəndiyev Eldar İlqar oğlu
7.Ələkbərli Fatimə Fuad qızı
8.Əliyev Elmar Tofiq oğlu
9.Əliyeva Aytən Mahir qızı
10.Feyzullayeva Səbinə Azər qızı
11.Həmidova Ülkər İlham qızı
12.Həsənova Maya Rəşad qızı
13.İbrahimova Aysel Vasif qızı
14.İltifatlı Aysun Novruz qızı
15.Qurbanzadə Aytac Gəncəvi qızı
16.Mədətova Lalə Emil qızı
17.Məmmədli Aliyə Arzu qızı
18.Məmmədli Azər Faiq oğlu
19.Mikayılov Ayxan Arif oğlu
20.Müslümov Ziya Qurbanxan oğlu
21.Nəcəfli Novruz Nadir oğlu
22.Osmanov Yaşar Şahin oğlu
23.Şahbazova Aliyə Azər qızı
24.Şirinzadə Əbil Adəm oğlu
25.Yusifov Nemət Kamran oğlu
26. Yusubov Loğman İlqar oğlu

# Heriatriya üzrə başladılan iki günlük seminar başa çatdı

**Sentyabr ayının 15-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında ATU-nun məzunu, İsrailin Ben-Qurion Universitetinin Tibb fakültəsinin baş mühazirəçisi, professor Yan Pressin rəhbərliyi ilə davam edən 2 günlük seminarın sonunda həkimlərə sertifikatların təqdimetmə mərasimi keçirildi.**

“Çox şad oldum ki, bu il Azərbaycan Tibb Universitetində də Geriatriya şöbəsi yaradıldı. ATU ilə Ben-Qurion Universitetinin əməkdaşlığı nəticəsində artıq ikinci dəfədir ki, belə bir seminar keçirilir. Cəmiyyətdə daha çox diqqətə və qayğıya ehtiyacı olan yaşlı insanlara kömək etmək məqsədilə belə seminarların təşkil olunması bizim üçün də böyük əhəmiyyət kəsb edir. Çalışacayıq ki, bu əlaqələri gələcəkdə daha da möhkəmləndirək”.



Təqdimetmə mərasimində çıxış edən ATU-nun elmi işlər üzrə prorektoru, dosent Rauf Bəylərov iki gün davam edən seminarın çox yüksək səviyyədə təşkil olunduğunu və bunun həkimlərin təcrübələrinin artırılması baxımından önəmli xarakter daşıdığını bildirib.

R.Bəylərov ATU ilə Ben-Qurion Universiteti arasında əməkdaşlıq əlaqələrinin bundan sonra da sıx şəkildə davam etdiriləcəyini diqqətə çatdırıb.

Daha sonra İsrailin Azərbaycandakı səfiri Dan Stav çıxış edib.

O bildirib ki, əməkdaşlıq çərçivəsində hər iki ölkənin tibb universitetləri arasında həyata keçirilən bu layihələr çox təqdirəlayiqdir.

Səfir Azərbaycanda dövlət rəsmiləri ilə görüşlər zamanı iki ölkə arasında körpünün yaradılmasında yəhudi cəmiyyətinin böyük rol oynadığını da qeyd edib.

“Bu gün burda iştirak edən iki İsrailli mütəxəssis bunun sübutudur. Onlar Azərbaycanda böyüyüb, daha sonra təhsillərini davam etdirmək üçün İsrailə üz tutublar. Bu da mənim sözlərimin sadəcə söz olmadığının göstəricisidir. Biz ümid edirik ki, bu layihə davam edəcək, gələcəkdə də mütəxəssislər dəvət olunacaq və əməkdaşlıq əlaqələri daha da genişləndiriləcək”.

**Pərvin ARZUQIZI**

# I müalicə-profilaktika fakültəsinin rəhbərliyi yeni qəbul olan tələbələrlə görüşüb

Sentyabrın 14-də Azərbaycan Tibb Universitetinin I müalicə-profilaktika fakültəsinin rəhbərliyi universitetə yeni qəbul olan tələbələrlə görüş keçirib.

ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev tədbiri açaraq, iştirakçılara bu ali təhsil ocağının tarixindən danışdı: "Azərbaycan Tibb Universiteti 1930-cu ildə Bakı Dövlət Universitetinin tibb fakültəsi bazası əsasında yaradılıb. Yarım əsrdən çoxdur fəaliyyətdə olan universitet hazırda zəngin maddi-texniki bazası, tədris korpusları, tələbə yataqxanası, xəstəxana və klinikaları ilə Azərbaycanın ən iri elm və tibb ocaqlarından biridir. Universitet elmi-tədqiqat laboratoriyaları, müasir cihaz və avadanlıqlarla təchiz edilib ki, bu da elmi axtarışların əhəmiyyətini artırmağa, tibb sahəsində kifayət





qədər kadr potensialı yaratmağa imkan verib".

Fakültə dekanı, dosent Qorxmaz Əhmədov isə tələbələri təbrik edərək, onlara universitet həyatında uğurlar diləyib. Daha sonra ATU-nun I müalicə-profilaktika fakültəsini əks etdirən slayd-şou təqdim edilib. Tələbələrə fakültənin elektron ünvanı, yerləşdiyi yer, dekanlığın şərtləri və s. məsələlər barədə məlumat verilib.

Görüşün sonunda Q.Əhmədov tələbələri maraqlandıran sualları cavablandırdı.

## I kurs tələbələri II müalicə-profilaktika fakültəsi ilə tanış oldular

Azərbaycan Tibb Universitetinə yeni qəbul olunmuş tələbələrlə görüşlər davam edir. Sentyabrın 14-də daha bir neçə fakültə rəhbərliyi I kurs tələbləri ilə geniş miqyaslı toplantı keçirib. O cümlədən, ATU-nun II müalicə-profilaktika fakültəsinin dekanlıq nümayəndələrinin I kurs tələbələri ilə görüşü keçirilib.

Görüşdə ATU-nun II müalicə-profilaktika fakültəsinin dekanı, dosent İsrail Məhərrəmbəyli universitetə yeni qəbul olan tələbələri təbrik edərək, onlara fakültə haqqında qısa məlumat verib: "II müalicə-profilaktika fakültəsində "müalicə işi" ixtisası üzrə müasir səviyyəli həkimlər hazırlanır. Fakültənin I-III kurslarında təbabətin



təməl fənləri, yuxarı kurslarda isə klinik fənlər tədris olunur. Ümid edirik ki, hamınız gələcəkdə bu ixtisas üzrə zəruri biliklərə yiyələnib, xalqımıza fayda verəcəksiniz".

Daha sonra ATU-nun tədris şöbəsinin müdiri, dosent Nəsimi Qasımov çıxış edərək, tələbələrə və valideynlərə öz praktikasına uyğun öyüd-nəsiyyətlərini verdi: "Bu gündən həyatınızda çox önəmli bir mərhələyə addım atırsınız. Tibb Universiteti Azərbaycanın ən tanınan, ən nüfuzlu universitetlərindən biridir. Siz artıq bu gündən təhsillə bağlı bəzi vərdişlərə yiyələnməlisiniz. Həyatda daim fəal olmağı, yalnız tibbi deyil, digər sahələrdə də aktiv fəlaiyyət göstərməyi məsləhət görürəm".



Daha sonra fakültənin dekan müavini Mahir Quliyev çıxış edərək görüş iştirakçılarına fakültədə keçiləcək fənlər, dərs keçiləcək korpuslar, tədrisin qaydaları, imtahan prosesi haqqında praktiki məlumatları çatdırdı. Görüş zamanı yeni tələbələr də onların maraqlandıran sualları fakültə rəhbərliyinə ünvanladılar.

## Yeni tələbələr ATU-nun Əczaçılıq fakültəsi ilə tanış olublar

Birinci kurs tələbələrini universitet həyatı, tədris qaydaları ilə tanış etmək məqsədilə sentyabrın 14-də ATU-nun əczaçılıq fakültəsində tədbir təşkil edilib. Görüşdə fakültənin dekanı, professor Tahir Süleymanov çıxış edərək Azərbaycanda əczaçılıq təhsilinin tarixi haqqında ətraflı məlumat verib.



Professor T.Süleymanovun sözlərinə görə, ölkəmizdə 1939-cu ildə ilk dəfə olaraq əsaslı Əczaçılıq İnstitutu açılıb. İkinci dünya müharibəsi illərində isə institut Əczaçılıq fakültəsi qismində fəaliyyətə başlayıb: "Elə həmin vaxtdan etibarən Əczaçılıq fakültəsi uğurla işini davam edirir. Bu günə qədər fakültəni bitirmiş təxminən 7000-ə yaxın məzun ölkənin dərman təchizatı sahəsində işləyirlər. Məzunlarımız istər satış məntəqələrində, apteklərdə, istər istehsalat hissəsində, istər inzibati işlərdə, istərsə də elmi sektorda fəaliyyət göstərirlər. Fakültədə təhsil alanlar insan sağlamlığının qorunmasında həkimlər qədər məsuliyyət daşıyırlar".



Daha sonra ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev I kurs təbələlərini təbrik edərək onlara uğurlar dilədi: "Tələbəlik həyatını gənclərin həyatında dönüş nöqtəsi saymaq olar: Digər ali məktəblərdən fərqli olaraq ATU-da təhsil insanların malik olduğu ən qiymətli nemət-sağlamlığın qorunması ilə bağlı olduğundan, bizim müəllimlərin və tələbələrin məsuliyyəti daha böyükdür. Odur ki, hər birinizi çalışqan və fəal olmağa, dərin bilikləri qəbul etməyə çağırıram".

Görüşün sonunda ATU-nun əczaçılıq fakültəsinin I kurs tələbələri fakültə rəhbərliyinə onları maraqlandıran sualları ünvanlayıblar. Gənclər universitetdə keçirdikləri ilk günün maraqlı təşkilinə görə ATU nümayəndələrinə təşəkkür ediblər.

ATU-nun mətbuat xidməti

# Tibbi profilaktika fakültəsinin I kurs tələbələri ilə tanışlıq görüşü keçirilib

**Azərbaycan Tibb Universitetində I kurs tələbələri ilə görüşlər çərçivəsində növbəti toplantı tibbi profilaktika fakültəsində keçirilib. Dekanlıq nümayəndələrinin qatıldığı görüşdə I kurs tələbələri ilə yanaşı, onların valideynləri də iştirak ediblər.**





ATU-nun tibbi profilaktika fakültəsinin dekanı, dosent Anar Ağayev həkim olmaq istəyən gənclərə tibbi profilaktika ixtisasının əsasları haqqında danışıb. Onun sözlərinə görə, bu sahə əhali arasında yoluxucu və qeyri-yoluxucu xəstəliklərin yaranma səbəbləri və mexanizmlərini, yayılmasının qanunauyğunluqlarını öyrənir, ətraf mühitdə olan risk amillərini, risk qruplarını və risk zonalarını aşkar edərək, əhalinin sağlamlığının pozulmasının qarşısını alan, elmi cəhətdən əsaslandırılmış profilaktik tədbirlər sistemini işləyib hazırlayır. Bununla da insanların sağlamlığının qorunmasını, əmək qabiliyyətinin, həyat keyfiyyətinin yüksəldilməsini və ömrünün uzadılmasını təmin edir: "Tibbi profilaktika sahəsi ictimai sağlamlığın qorunmasında prioritet xarakter daşımaqla, daha humanist tibbi fəaliyyət sahəsi hesab edilir. Tibbi profilaktika fakültəsi məhz bu keyfiyyətlərə malik, dərin bilik və səmərəli bacarıqlara yiyələnmiş, ekoloji təhlükəsizliyi təmin edən həkimlər hazırlayır".

ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev tələbələri təbrik edərək, tibbi profilaktika fakültəsinin ATU-nun önəmli fakültələrindən biri olduğunu qeyd etdi: "Tibbi profilaktika ixtisasını bitirən məzunlar rezidenturada təhsil alaraq mikrobiologiya, epidemiologiya, infeksion xəstəliklər, gigiyena, laboratoriya işi, sosial gigiyena və səhiyyənin təşkili üzrə kadrlar kimi hazırlanır".

Daha sonra dekan A.Ağayev tələbələri maraqlandıran sualları cavablandıraraq, ATU-dakı dərs prosesi, təhsilin keyfiyyətləri haqqında məlumat verdi. Qeyd edək ki, bu il 77 nəfər ATU-nun Tibbi profilaktika fakültəsinin tələbəsi adını qazanıb.

# Stomatologiya fakültəsində I kurs tələbələri ilə görüş

**Azərbaycan Tibb Universitetində fakültə rəhbərlərinin I kurs tələbələri ilə silsilə görüşlərə strat verilib. İlk belə görüş Stomatologiya fakültəsinin dekanlıq nümayəndələrinin iştirakı ilə baş tutub.**



Görüşdə bu il ATU-nun Stomatologiya fakültəsinə qəbul olmuş tələbələr və onların valideynləri iştirak ediblər. ATU-nun tədris və müalicə işləri üzrə prorektoru, professor Sabir Əliyev bu fakültəyə qəbul olan gəncləri təbrik edib: "Həkimlik, insanların sağlamlığını qorumaq çox vacib və əhəmiyyətli işdir. Bu sırada stomatologiyanın xüsusi yeri var. Tibb Universitetinin stomatologiya fakültəsində sizin nəzəri və praktik biliklərə yiyələnməniz üçün hər cür şərait yaradılıb. Savadlı müəllimlərimiz, hər cür yeni avadanlıqlarla təchiz olunmuş otaqlarımız var. İnanıram ki, hər birinizə lazımi bilikləri qazanmağa kömək edəcəyik."



Professor S.Əliyev həmçinin xarici tələbələr arasında daha çox məhz stomatologiya fakültəsini seçənlərin olduğunu da vurğuladı.

Görüşdə fakültə dekanı, professor Zöhrab Qarayev tələbələrə ATU-dakı tədris prosesi, imtahanlar, dərslərin aparılması, həmçinin nizam-intizam qaydaları haqqında geniş məlumat verdi: "Stomatologiya fakültəsində həkim-stomatoloq ixtisasları üzrə kadrlar hazırlanır. Tələbələrə təbabətin təməl fənləri ilə yanaşı, stomatoloji fənlər – stomatoloji xəstəliklərin profilaktikası, terapevtik stomatologiya, ağız və üz-çənə cərrahiyyəsi, ortopedik stomatologiya, uşaq stomatologiyası, ortodontiya tədris olunur". Dekan həmçinin klinikada yaradılan bacarıq otaqlarından da söz açaraq, tələbələrin müasir stomatoloji qurğularla təchiz edilmiş kabinetlərdə təcrübə dərsləri keçdiyini və praktiki vərdişlər əldə etdiyini, müxtəlif əməliyyatların yerinə yetirilməsində iştirak etdiklərini qeyd etdi.

Daha sonra görüşdə iştirak edən birinci kurs tələbələri onları maraqlandıran sualları səsləndirdilər. Qeyd edək ki, bu il ATU-nun stomatologiya fakültəsinə 97 nəfər azərbaycanlı, 243 nəfər xarici vətəndaş qəbul olub.

ATU-nun mətbuat xidməti

# Bakıda keçiriləcək elmi konfransda tibbin müxtəlif sahələri üzrə müzakirələr aparılacaq




**Oktyabrın 27-28-də Türkiyənin Kardiovaskulyar Akademik Dərnəyi və Azərbaycan Tibb Universiteti Kardiologiya Akademiyasının birgə təşkilatçılığı ilə elmi konfrans keçiriləcək.**

Məlumatda bildirilir ki, üç gün davam edəcək konfransda koronar və periferik invaziv müalicə üsulları, kəskin serebrovaskulyar hadisə-mexaniki trombektomiya, eyni zamanda aritmiyaların yeni diaqnostika və müalicə üsulları haqqında birbaşa bağlantı vasitəsi ilə müzakirələr aparılacaq.

# Gənclərin elmə maraqlarını artırmaq məqsədilə televiziya proqramları hazırlanacaq

**Gənclərin elm, texnika və innovasiyalar sahəsinə marağını artırmaq məqsədilə 2017-2021-ci illərdə televiziya proqramları hazırlanacaq.**



AZƏRTAC xəbər verir ki, bu, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sentyabrın 16-da imzaladığı Sərəncamla təsdiq edilmiş "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə Dövlət Proqramı"nda yer alıb.

İşin icrası Gənclər və İdman Nazirliyi, Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fonduna tapşırılıb.

**Sentyabrın 14-də Mərkəzi Hərbi Klinik Hospitalın həyətində Azərbaycan Tibb Universitetinin hərbi tibb fakültəsinin V kurs kursantlarının andiçmə mərasimi oldu. Hərbi tibb fakültəsinin rəisi, tibb xidməti polkovniki Çingiz Əlləzov, toplantı rəisi, tibbi xidmət polkovnik-leytenantı Qabil Hüseynova andiçməyə başlama əmrini verdi.**

# KURSANTLARIMIZ TƏNTƏNƏLİ ŞƏKİLDƏ HƏRBİ AND İÇDİLƏR





İlk öncə ulu öndər Heydər Əliyevin və Vətənimizin azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Dövlət Himni oxunduqdan sonra Hərbi And kursantlar tərəfindən təntənəli şəkildə səsləndirildi.

Kursantların andiçməsi başa çatdıqdan sonra Ç.Əlləzov onları bu münasibətlə təbrik etdi.

Sonra söz Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin zabiti polkovnik-leytenant Azər Əliyevə verildi. O da öz çıxışında təmsil olunduğu idarənin rəhbərliyi və onun kollektivi adından kursantları Hərbi And münasibəti ilə təbrik etdi, onlara bu çətin və şərəfli peşədə uğurlar dilədi.

Kursant Şamxal Nadirov öz çıxışında umummilli lider Heydər Əliyevin təməlini qoyduğu hərbi tibb fakültəsinin bir aylıq hərbi təlim toplanışında olduqlarını bildirdi: "Təlim toplanışı zamanı hərbi tibb fakültəsinin rəhbərliyi, zabit və gizirləri tərəfindən isti münasibətin şahidi olduq. Bu müddət ərzində bir çox bilik və bacarılqlara yiyələndik. Zabitlər bizə hərbi sirləri öyrətdilər. Bizə yaradılan şəraitə görə Azərbaycan Respublikasının Müdafiə nazirinə, Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin rəisinə, hərbi tibb fakültəsinin rəisinə və bütün kollektivə kursant yoldaşlarımın və öz adımdan dərin təşəkkür edirəm. Bu gün biz kursantlar Hərbi Andı qəbul etdik. Buna görə qürur hissi keçirirk.

İki qədim sənət olan hərbçilik və həkimliyin məsuliyyətini çiyinlərimizdə hiss edirik. Bu səbəbdən bizə göstərilən qayğını və ümidləri doğrultmaq üçün var gücümüzlə çalışacağıq. Bu gün münasibəti ilə bütün kursant yoldaşlarımı ürəkdən təbrik edirəm. Biz öz növbəmizdə Silahlı Qüvvələrin inkişafına töhfəmizi verməklə həkimlik borcumuzu yerinə yetirəcəyimizə, Vətənimizin müdafiəsində şərəflə duracağımıza söz veririk."

Valideynlər adından çıxış edən Fəxrəddin Əlirzayev kursantları bu gün münasibəti ilə təbrik etdi, onların valideynlərinə gözaydınlığı verdi. Komandanlığa və şəxsi heyətə övladlarına göstərdikləri diqqət və qayğıya görə təşəkkürünü bildirdi. Eyni zamanda kursantlara Vətəni canları kimi sevməyi tövsiyə etdi. Mərhum xalq şairi Bəxtiyar Vahabzadənin Vətən haqqında yazdığı şeirindən bir parça səsləndirdi:

**"Vətəni sevirəm-deyən çox olar,**
**Deməyə nə var ki, dil yorulmasa.**
**Vətən də bizim tək ölər, yox olar,**
**Vətənin uğrunda ölən olmasa."**

Onun çıxışı zabitlər, kursantlar və mərasimi izləyən valideynlər tərəfindən alqışla qarşılandı.

Ç.Əlləzov qəzetimizə verdiyi açıqlamada bildirdi ki, Hərbi And içənlər Hərbi Həkim Hazırlıq və Feldşer Kurslarının kursantlarıdır. Bu gün onların həyatında əlamətdar hadisədir. Onlar tam tərkibdə Hərbi Andı içdikdən və iki il təhsillərini davam etdirdikdən sonra leytenant rütbəsi ilə hərbi hissələrdə qulluq edəcəklər.

Sonda Ç.Əlləzov valideynlərlə söhbət edib, onlara övladlarına dövlət tərəfindən yaradılan şəraitdən, hansı şəraitdə təhsil almalarından ətraflı söhbət açdı. Valideynlərin diqqətinə çatdırdı ki, hər biri övladlarının qaldıqları və tədris aldıqları şəraitlə yaxından tanış ola bilər. Valideynlərdən bəziləri artıq şəraitlə tanış olduqlarını və övladlarına göstərilən qayğıdan razı qaldıqlarını bildirdilər.

**Qabil ABDULLAYEV**

- **Sentyabrın 7-də Azərbaycan Tibb Universitetinin Tədris Terapevtik Klinikasında yanğından mühafizə qaydalarına həsr olunmuş tədbir keçirilib.**

# Yanğından mühafizə qaydalarına həsr olunmuş tədbir keçirilib





Tədbirdə ATU-nun Mülki Müdafiə Qərargahının rəisi Firdovsi Məmmədov, direktorun müalicə işləri üzrə müavini Adil Nuriyev, Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğından Mühafizə Xidmətinin əməkdaşları, klinikanın həkimləri, tibb bacıları və texniki işçilər də iştirak edib.

Tədbirdən öncə FHN əməkdaşları klinikanın direktoru, professor Hüseyn Qabulovla görüşüblər. Görüşdə nazirliklə klinika arasında əməkdaşlıqla bağlı məsələlər də müzakirə edilib.

Daha sonra FHN-nin Dövlət Yanğından Mühafizə xidmətinin əməkdaşı Nizami Fərəcov yanğından mühafizə qaydaları ilə bağlı klinikanın həkim və texniki heyətinə lazımi məlumat verib.

Onun sözlərinə görə, bu gün keçirilən maarifləndirmə tədbiri hər zaman aktual olub: "Çünki bizim hər birimiz yanğın təhlükəsizliyi qaydalarını bütünlüklə bildiyimizi zənn edirik. Amma baş vermiş yanğınların təhlili göstərir ki, bu, heç də belə deyil. Bu yanğınların cəmi 4-5%-i təbii faktorlarla bağlıdır. Yanğınların baş verməsində əsasən insan amili dayanır. Buna görə də demək olar ki, hər gün respublikamızda orta hesabla 5-6 yanğın hadisəsi baş verir. Yanğınların 70%-i yaşayış sektorunda qeydə alınıb. İkinci yerdə isə nəqliyyat sahəsi dayanır".

N.Fərəcov yanğından qorunmaq üçün əsas diqqət yetirilməli olan məsələlərə də toxunub: "Elektrik qurğularının quraşdırılması və istismarı zamanı yanğın təhlükəsizliyi qaydalarının pozulması yanğını törədən əsas səbəblərdən biridir. Buna görə də qeyri standart elektrik cihazlarından istifadə etmək, elektrik cihazlarını işlək vəziyyətdə nəzarətsiz qoymaq, hətta bizim təhlükəsiz sandığımız telefon adapterlərindən tutmuş, bütün elektrik cihazlarına qədər yanğın törədən amillərdir. Ona görə də evdən bayıra çıxarkən mütləq elektrik cihazları şəbəkədən ayrılmalı və qaz cihazları söndürülməlidir. Bu qaydalara tək evdə deyil, istənilən müəssisədə çalışan hər bir əməkdaş əməl etməlidir. Keçən il baş verən 120 yanğın hadisəsinin əsas səbəbi siqaretdən qaynaqlanıb".

Yanğın söndürən cihazların əhəmiyyətindən danışan N. Fərəcov ondan istifadə qaydasının bütün insanların bilməsinin və hər evdə bu cihazın olmasının vacibliyini vurğulayıb.

Daha sonra FHN əməkdaşları tərəfindən klinika əməkdaşlarına yanğın söndürən cihazdan istifadə qaydası ilə bağlı təlimatlar verilib.

**ATU-nun mətbuat xidməti**

# Ömrün 70-ci baharı

**Azərbaycan Tibb Universitetinin latın dili kafedrasının müdiri Bahadur Mikayıl oğlu Hüseynovun 70 yaşı tamam oldu. Onun həyatı, elmi və təcrübi fəaliyyəti gənc nəsil üçün örnək ola bilər.**



B.Hüseynov 13 sentyabr 1947-ci ildə Bakı şəhərində anadan olub. O, 1965-ci ildə Yasamal rayonu 31 saylı orta məktəbdə təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Tibb İnstitutunun əczaçılıq fakültəsinə daxil olmuş, 1970-ci ildə isə həmin fakültəni bitirərək provizor sənətinə yiyələnmişdir. 1970-1983-cü illərdə Bakı şəhərində yerləşən 11; 22; 218 və 507 saylı apteklərdə müdir vəzifəsində çalışmış, 1983-cü ildə Sumqayıt Rayonlar arası Apteklər idarəsinin müdiri təyin edilmişdir. O, zaman Azərbaycanın 8 rayonunun 100 apteki bu idarənin tabeçiliyində olmuşdur. Həmin vəzifədə işləyərkən XI çağırış Sumqayıt Şəhər Sovetinin deputatı seçilmiş, eyni zamanda Azərbaycan Əczaçılıq Elmi Cəmiyyətinin və Baş Apteklər İdarəsinin idarə heyətinin üzvü olmuşdur. 1987-ci ildə Baş Apteklər İdarəsində edilmiş struktur dəyişiklikləri ilə əlaqədar Bakı şəhərində 27 saylı aptekin müdiri vəzifəsinə təyin edilmişdir.

Bununla yanaşı Bahadur muəllim elmi fəaliyyətini də davam etdirmişdir. O, 1978-ci ildə Azərbaycan Dövlət Tibb İnstitutunun qiyabi aspiranturasına daxil olmuş və 1986-cı ildə Moskva şəhərində namizədlik dissertasiyasını müdafiə edərək, əczaçılıq elmləri namizədi adını almışdır.

Müxtəlif illərdə əczaçılıq fakültəsində Dövlət İmtahan Komissiyasının sədri olmuşdur.

Azərbaycan Tibb Universitetinin Elmi Şurasının qərarı ilə B.Hüseynov 2006-cı ildən universitetin latın dili kafedrasına rəhbərlik edir. Bahadur müəllim işlədiyi ilk gündən kafedra əməkdaşlarının dərin hörmətini qazanmışdır. Kafedraya gəldikdən sonra kafedra əsaslı təmir edilmiş və müəllim-tələbə heyəti üçün gözəl şərait yaradılmışdır. Bütün bu işlərdə Bahadur müəllimin böyük əməyi vardır.

Eyni zamanda 8 dərs vəsaitinin, 30-dan artıq metodiki vəsait və elmi məqalələrin müəllifidir.Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə Bahadur müəllim "Tərəqqi" medalı və Azərbaycan Tibb Universitetinin "Fəxri fərmanı" ilə təltif edilmişdir.

B. Hüseynov həm də nümunəvi ailə başçısıdır. Vətənə 3 layiqli övlad böyütmuşdür. Onların ikisi əczaçı, biri isə stomatoloqdur.

Olduqca sadə, sadə olduğu qədər də böyük insan olan Bahadur müəllimi səhiyyəmizin inkişafındakı xidmətlərinə görə və anadan olmasının 70 illiyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, elmi və pedaqoji fəaliyyətində yeni-yeni müvəffəqiyyətlər arzulayırıq.

*Latın dili kafedrasının əməkdaşları*

# Sevimli müəllim

**Bu günlərdə Azərbaycan Tibb Universitetinin Mikrobiologiya və immunologiya kafedrasının dosenti Səidə Qaraş qızı Zeynalovanın anadan olmasının 70, elmi-pedaqoji fəaliyyətinin 45 illiyi tamam olmuşdur.**



S.Zeynalova 3 sentyabr 1947-ci ildə Dağlıq Qarabağ Muxtar Vilayəti Şuşa rayonunun Malıbəyli kəndində müəllim ailəsində anadan doğulmuşdur. 1965-ci ildə Xankəndi şəhərində orta məktəbi gümüş medalla bitirən Səidə xanım həmin ildə Azərbaycan Tibb İnstitutunun sanitariya-gigiyena fakültəsinə daxil olmuşdur. 1971-ci ildə Tibb İnstitutunu bitirdikdən sonra Elmi Şuranın qərarı ilə Elmi-Tədqiqat Tibbi Parazitologiya institutunda kiçik elmi işçi kimi fəaliyyətə başlamış, 1972-ci ildə müsabiqə yolu ilə ATU-nun Mikrobiologiya və immunologiya kafedrasına assistent vəzifəsinə seçilmişdir. 1982-ci ildə tibb elmləri namizədi alimlik dərəcəsi alaraq kafedrada baş müəllim, 1992-ci ildən bu günə qədər isə dosent vəzifəsində çalışır.

Səidə xanım Tibb Universitetində işlədiyi müddətdə bütün fakültələrin tələbələrinə mühazirələr oxuyur və təcrübi məşğələ dərsləri aparır, həkim mikrobioloq ixtisası üzrə təhsil alan rezidentlərə rəhbərlik edir. O, keçmiş SSRİ-nin müxtəlif şəhərlərində dəfələrlə ixtisasartırma kursları keçmiş, iki dərsliyin və bir dərs vəsaitinin müəllifidir. Öz təcrübəsini kafedrada işləməyə başlayan gənc müəllimlərə qayğıkeşliklə öyrədən Səidə xanım hazırda Mikrobiologiya və immunologiya kafedrasının tədris hissə müdiridir.

Tədris fəaliyyəti ilə yanaşı elmi-tədqiqat işləri ilə də məşğul olan Səidə xanım 100-dən artıq elmi məqalənin, 10 müəlliflik şəhadətnaməsinin və 4 patentin müəllifidir. Müalicəvi Naftalan neftinin antimikrob təsirinin öyrənilməsi ilə elmi axtarışlara başlayan Səidə xanımın hazırkı elmi fəaliyyəti həm təbii, həm də yeni sintez olunmuş maddələrin antimikrob fəallığının öyrənilməsinə həsr olunmuşdur.

Tələbələrin sevimli müəllimlərindən olan Səidə xanım bu gün də yorulmadan çalışır, öz biliklərini gələcək həkimlərə, tələbələrə və rezidentlərə böyük həvəslə öyrədir. Onun mühazirələri və məşğələləri tələbələr tərəfindən böyük maraqla qarşılanır.

Azərbaycan Tibb Universitetinin Mikrobiologiya və immunologiya kafedrasının əməkdaşları Səidə xanımı yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, yorulmaz müəllimlik fəaliyyətində uğurlar arzu edirlər.

*Mikrobiologiya və immunologiya kafedrasının əməkdaşları*

# Süddə qan kütləsi göründüyü zaman nə etməli? - Mammoloq-radioloqdan gənc analara MƏSLƏHƏT

Son vaxtlar süddə qan kütləsinin görünməsi gənc analarda bir çox sualların meydana çıxmasına səbəb olur. Bu qan haradandır? Belə süd uşağa ziyandırmı? Əgər bu qan deyilsə, bəs nədir?

Bu kimi suallarla ATU-nun Tədris Terapevtik Klinikasının aparıcı həkimi, mammoloq-radioloq Günel Qəmbərovaya müraciət etdik.

Həkimin sözlərinə görə, süd verən qadınların 15%-nin südündə qan görünə bilər: "Bu həm ilkin ana südündə ("molozivo"), həm də xalis əsl süddə mövcud ola bilər. Daha çox hallarda ilk dəfə süd verən xanımlarda uşağı sinəyə düzgün tutmadıqda, vəzin travma almasından qana rast gəlinir. Qanlı südü uşaq qəbul edəndə çox hıçqırır və bəzən isə qaytarma halları olur. Təbii ki, bu zaman ana həyəcanlanır və ona elə gəlir ki, uşaq "qan qaytarıb". Bu, o zaman baş verir ki, uşaq ana südü ilə qan qəbul edib və bu qan mədədə "tikə, çöp" reaksiyası verərək, nəticədə uşağın qaytarmasına səbəb olur. Hər iki halda tələsə ehtiyac yoxdur, körpə az miqdarda ana südü ilə qan qəbul edibsə, bu, qorxulu deyil".




G.Qəmbərova onu da bildirib ki, əgər süddə mütəmadi qan görünərsə, mütləq səbəbi araşdırılmalıdır: "Bu, müxtəlif səbəblərdən qaynaqlana bilər. Həmçinin bu, o deməkdir ki, seçdiyimiz alqoritmik hərəkət də fərqli ola bilər. İlk öncə süd vəzi giləsində çat, areolada travmatik izlər axtarmaq vacibdir. Eyni zamanda bu hal mexaniki səbəbdən, molokootsosdan (süd çəkən cihaz) düzgün istifadə etməyəndə və əllə süd sağmaqdan döşün zərbə almasından, gilənin çox intensiv təzyiqlə xaricə çıxartmaq cəhdindən də baş verə bilər".

"Bəs belə olan halda gənc analar nə kimi tədbirlər görməlidir" sualına mammoloq-radioloq belə cavab verib: "Mümkün qədər travmanın səbəbi aradan qaldırılmalıdır. Həmçinin süd verməni davam etdirmək və süd normal süd rəngini alana qədər gözləmək lazımdır. Bəzən erkən laktogenez dövründə, hamiləliyin 4-cü ayından etibarən süddə qan görünə bilər. Bu zaman yenə də süd verilməsinə davam etmək, mövcud vəziyyətin ən azı 3-7 günə qədər düzələcəyini gözləmək lazımdır".

Həkim qeyd edib ki, əgər süd vəzindən qan bir həftədən çox gələrsə, mütləq həkimə müraciət olunmalıdır: "Çünki,bəzi hallarda axacaqdaxili polip olduqda, belə dəyişikliklər analarda görünür. Polip axacaqda yaranan xoşxassəli düyündür və süd vəzidə heç bir şişkinlik, ya da ağrı əmələ gətirmir. Bu zaman qan hətta öz-özünə də dayana bilər. Amma unutmamaq lazımdır ki, həkim nəzarəti mütləqdir. Sitoloji analiz və USM müayinəsinin aparılması şübhələrin azalmasına gətirib çıxarır.

Gilədən hər hansı bir ifrazat qanlı şəkildə gəlirsə, qeyri laktogen dövrdə dəqiq müayinə aparılması mütləqdir. USM və sitoanalizlə birgə, duktoqrafiya müayinəsi də aparılmalıdır. Bu zaman axacaqdaxili yeritdiyimiz kontrast maddə çox zaman müalicəvi xarakter də daşıyır və ifrazatı dayandırmış olur. Papilloma cərrahi yolla azad olunur. Əməliyyata qədərsə, süd verilməsi davam etdirilməlidir".

16 sentyabr Ümumdünya Ozon Qatının Mühafizəsi Günüdür

# Ozon təbəqəsini qorumaq təbiəti və bəşəriyyəti qorumaq kimidir

- **Müasir dünyanın ekoloji problemlərinin tənzimlənməsində ozon təbəqəsinin rolu çox böyükdür. Nazik qaz siperi olan ozon təbəqəsi yer kürəsini artmaqda olan radiasiya şüalarının məhvedici təsirindən qoruyur və beləliklə, planetimizdə həyatı mühafizə edir. Yer kürəsində olan bütün canlıların ultrabənövşəyi şüalanmadan qorunması və ozon qatının mühafizəsi dünya ölkələrini narahat edən birinci dərəcəli məsələdir. Hal-hazırda ozon qatının mühafizəsinin beynəlxalq devizi belədir: "Səmanı qoru, özünü qoru, canlı aləmi qoru, ozon təbəqəsini qoru".**




1994-cü ildə BMT Baş Assambleyasının qərarı ilə 16 sentyabr "Beynəlxalq Ozon Təbəqəsinin mühafizəsi" günü elan edilmişdir. Bu gün ozon təbəqəsinnin dağılmasına səbəb olan atmosferdəki istehsalat tullantıları və müasir dövrün kosmik-raket sınaqlarının həyata keçirilməsi tarixi Monreal protokollarında aydın göstərilmişdir. BMT-nin üzvü olan bütün dövlətlərə bu protokolda göstərilənlərin nəzərə alınması tövsiyə olunmuşdur. Bundan başqa "Ozon Təbəqəsinin qorunması haqqında Vyana konvensiyasında ozon təbəqəsinə dağıdıcı təsir göstərən maddələri özündə əks etdirən sənəd bu gün qüvvədədir. Vyana konvensiyasına 173 dövlət qoşulmuşdur. Saziş açıqdır və istənilən dövlət öhdəlikləri nəzərə almaqla qoşula bilər.

1993-cü ildə ulu öndərimiz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Respublikası da Beynəlxalq Mülki Müdafiə Təşkilatına üzvlüyə qəbul edilmiş və bütün beynəlxalq sazişlərin tələblərini yerinə yetirməyi öz öhdəsinə götürmüşdür. Əgər atmosfer çirklənməsinə səbəb olan istehsalat tullantılarının 30-35 faiz azaldılması üçün beynəlxalq təşkilatların tövsiyələrinə riayət edilsə yer kürəsini böyük təhlükələrdən qorumaq olar. Beynəlxalq ekspertlərin ölkəmizdə apardığı monitoriqin nəticələrinə görə Azərbaycan Respublikası müasir texnologiyaların istehsalata tətbiqi nəticəsində tullantıların 30%-dən çox azaldılmasına nail olmuşdur. Ozon təbəqəsi canlı aləmin əmələ gəlməsi və mövcudluğunu təmin edən əsas faktordur. Ona görə də ozon qatının müxtəlif cür zədələnməsi, dəliklərin əmələ gəlməsi və istehsalat tullantılarının artması canlı aləmin məhvinə gətirib çıxara bilər. Yer kürəsinin ultrabənövşəyi şüalardan qorunması stratosferin ozon qatının sayəsində mümkündür. Bu şualar orqanizmə müxtəlif mutagen, konsragen təsir göstərir, xüsusilə dəri xərçənginin inkişafına səbəb ola bilir. Ürək-qan damar sistemi patologiyası və müxtəlif dərəcəli kəskin şüa xəstəliyi olan şəxslərin səhhətində ciddi problemlər yaradır.

Planetimizdə artmaqda olan qlobal istiləşmənin əsas səbəblərindən biri də ultrabənövşəyi şüaların və günəş radiasiyasının artmasıdır. Son nəticədə şimal və cənub qütblərində olan əbədi buzlaq sahələrinin əriməsi, okean və dənizlərdə suyun səviyyəsinin qalxması, quru sahələrin su basması baş verir. Ağır fəsad kimi sahildə yerləşən ölkələrə maddi ziyan dəyir, ölkələrin mövcud infrastrukturu məhv olur, həyatı iflic edir, bəzən də çoxsaylı insan tələfatı baş verir və yoluxucu xəstəliklər yayılır. Ona görə də ozon təbəqəsini qorumaq təbiəti və bəşəriyyəti qorumaq kimidir.

**F.Əliyev,**
*Mülki Müdafiə Tibb Xidməti Təşkili kursunun müdiri, polkovnik*

---



**Talıbova Dilbər Ağa-Əli qızının aramızdan vaxtsız getməsi bütün kollektivimizi dərindən sarsıtmışdır. Bu kədərli günlərdə Dilbər xanımla işlədiyimiz müddətdə ünsiyyətimizi, çətin anlarımızı, sevincli günlərimizi xatırlayırıq və anlayırıq ki, dünyamız onsuz tənhalaşmışdır.**

## Qəlblərdə yaşayan insan

Dilbər xanımın zahiri və daxili gözəlliyi bir-birini tamamlayırdı. Öz işinə məsuliyyətlə yanaşan, daim öz üzərində çalışan bir əməkdaş idi. Kafedramızın sənədlərinin, tədris materiallarının, tapşırıqlarının hazırlanmasında böyük rolu olmuşdur. Hər bir işə öz bacarığını, var qüvvəsini sərf edirdi. Tədris işlərinə dair istənilən problemlərin həllində öz köməyini əsirgəmirdi. Tədris prosesinə məsuliyyyətlə yanaşan Dilbər müəllimə tələbələrə tədris etdiyi fənnin anlaması üçün böyük əmək sərf edirdi.

Dilbər xanım kollektivin hər bir üzvünə diqqətlə yanaşması, onların problemllərinin həlli üçün can atması, tələbələrə qarşı son dərəcə qayğıkeşliyi ilə seçilirdi. Öz daxili mədəniyyəti, davranışı, səmimiyyəti ilə kollektivin, tələbələrin hörmətini qazanmışdı.

Dilbər xanım dostluq etməyi, müxtəlif insanlarla düzgün müstəvidə münasibət qurmağı bacarırdı, pozitiv insan idi. Onunla hər bir ünsiyyət qarşı tərəfdən müsbət qarşılanırdı, çünki həyat əşqli gözəl bir dünyası var idi.

İş yerində və işdən kənar kollektivin hər bir üzvünün qarşılaşdığı problemlərin həllində var qüvvəsini əsirgəmirdi, bacardığı qədər yaxından iştirak etməyə çalışırdı.

Dilbər xanım haqqında çox söz yazmaq olar. Lakin heç bir söz onun itkisinin bizə nə dərəcədə ağır təsir etdiyini çatdıra bilmir.

Gözəl insan, bacarıqlı müəllim, səmimi dost Talıbova Dilbərin əziz xatirəsi daim bizim qəlbimizdə yaşayacaq və yaddaşımızdan silinməyəcəkdir.

Allah rəhmət eləsin, qəbri nurla dolsun!!

***Tibbi fizika və informatika kafedrasının əməkdaşları***

---

## ƏLİYEVA SİMUZƏR VƏLİ QIZI



**Azərbaycan Tibb Universitetinin Elmi katibliyinə ağır itki üz verib. Uzun illərdən bəri ATU-nun Elmi katibliyində kompyuter operatoru, stenoqrafçı vəzifəsində çalışan Simuzər Vəli qızı Əliyeva vəfat edib.**

S.Əliyeva 1978-ci il dekabrın 20-də Kürdəmir rayonunun Qaraqocallı kəndində anadan olub, 1995-ci ildə Bakı şəhəri Nizami rayonunun Keşlə qəsəbəsindəki 201 №-li orta məktəbi, 1999-cu ildə Azərbaycan Kooperasiya Universitetinin Əmtəəşünaslıq fakültəsini bitirib. 22 iyun 2002-ci il tarixindən ömrünün sonuna qədər ATU-nun İnzibati binasında çalışıb. Bu müddət ərzində o, özünü savadlı, bilikli, işgüzar və səmimi bir işçi kimi göstərib, rəhbərliyin bütün tapşırıqlarını özünəməxsus bacarıqla, mənəvi təmizlik və saflıqla yerinə yetirərək qüsursuz fəaliyyət göstərib. S.Əliyeva rektorluğun əməkdaşlarının və onunla təmasda olan bütün tibb kontingentinin dərin hörmət və rəğbətini qazanıb.

İki kiçik yaşlı övlad anası olan Simuzər Vəli qızı Əliyevanın əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaqdır.

Bu vaxtsız itkidən kədərlənir və "Allah rəhmət eləsin, qəbri nurla dolsun" – deyir, mərhumənin ailəsinə, yaxınlarına, valideyninə dərin hüznlə başsağlığı veririk.

***REKTORLUQ***

---

## Etibarsız sayılır

II müalicə-profilaktika fakültəsinin III kurs, $211^a$ qrup tələbəsi Həsənzadə Həsən Qəni oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin II kurs, $160^a$ qrup tələbəsi İsmayılov İlqar Abid oğlunun adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin VI kurs, $307^b$ qrup tələbəsi Mustafazadə Şəlalə Ərrəhman qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

I müalicə-profilaktika fakültəsinin V kurs, $75^a$ qrup tələbəsi Məhərrəmi Günay Məzahir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, $861^a$ qrup tələbəsi İskəndərova Vüsalə Əmir qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin II kurs, $365^a$ qrup tələbəsi Şükürova Fatimə Zaur qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əczaçılıq fakültəsinin IV kurs, 870-ci qrup tələbəsi Nəsibli Validə Rizvan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Əmiraslanova Sevinc Həmid qızına 2012-ci ildə Azərbaycan Tibb Universiteti tərəfindən pediatr ixtisası üzrə verilmiş internatura vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

II müalicə-profilaktika fakültəsinin IV kurs, $255^b$ qrup tələbəsi Zeynallı Fidan İlqar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

---

## Allah rəhmət eləsin!

Tibbi fizika və informatika kafedrasının əməkdaşları kafedranın baş müəllimi **Dilbər Talıbovanın** vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları kafedranın laborantı Rüxsarə Hacıyevaya qayınatası **Qədim Talıbovun** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Yoluxucu xəstəliklər kafedrasının əməkdaşları kafedranın dosenti Elza Orucovaya anası **Şərqiyə xanımın** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

ATU – nun Əsaslı kitabxanasının əməkdaşları iş yoldaşları **Mətanət Niyazovanın** vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Tibbi fizika və informatika kafedrasının əməkdaşları kafedranın baş laborantı Mətanət Murquzovaya qardaşı **İlqar Əliyevin** vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın laborantı Samirə Əliyevaya qayınatası **Vilayət Əliyevin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Xarici dillər kafedrasının əməkdaşları kafedranın müəllimi İradə Əliyevaya atası **Sucayət müəllimin** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Baş redaktor
ELDAR İSMAYIL

Müəlliflərlə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
*Əlyazmalar geri qaytarılmır.*

Qəzet "Təbib" qəzetinin kompyuter mərkəzində yığılır, səhifələnir, "Bəxtiyar-4" İKŞ-də çap olunur.

ÜNVANIMIZ:
Mərdanov qardaşları - $98^c$
2-ci mərtəbə,
Tel.: 595-24-97
tabibqazeti@gmail.com

Lisenziya H - 022633
İndeks -0269
Sayı 1800